Kaspi 2020.- 25-27 aprel.- S.11.



**Həsən Azəri**
*(1975)*

# KARANTİN ŞEİRLƏRİ

İnsanın insan asqırığından,
insan öskürəyindən qorxduğu bu vaxtda,
bəşərin ən öldürücü silahını
ağzında və ağız suyunda daşıdığı bu vaxtda
necə öpüşə bilərik
bir daha?
İndi bilirəm
ki, niyə insanlar
yumurlar gözlərini
öpüşərkən.

* * *

Kiçik bir ölkədəki dustaq
geniş bir məmləkətdəki dustaqdan
daha çoxmu darıxır?
Bütün dustaqların
evlərində olduqları bu vaxtda
nə fərqi var evlərin ölçüsünün?
Dustaq olduğu bir vətənin sahəsi
mühümdürmü
bir dustaq üçün?

* * *

Karantin mənə kömək etdi
ki, əsir edim özümü bir küncdə.
Qaçmağa yolu olmayan bir küncdə.
Və anlayım ki,
mən düzgün olmayan bir çoxbucaqlıyam
və hər tərəfim təzyiq göstərir o biri tərəfimə
dağılım deyə.

Karantində
o qədər çox bələd oldum ki özümə,
insan həndəsəsinə heyran qaldım.
Və baxdığım hər bucaqdan gördüm ki,
insan hər tərəfiylə
əzab verir o biri tərəflərinə.

Karantində anladım
ki, hər insanın
gedib idrak təcrübəsi aparacağı
şəxsi bir laboratoriyası olmalıdır.
Və eşq
yeganə şəxsi laboratoriyasıdır
hər insanın.

Karantində bildim
ki, insan bir başla gəlir dünyaya.
Ana bətnində
iki çiyninin arasında əmələ gələn
bir başla.
Doğulduqdan sonra
içində
əlavə min baş da
əmələ gəlir.
İnsan içindəki min başla belə
baş çıxarda bilmir öz içindən.

Karantindəki yuxusuzluqlar mənə öyrətdi
ki, heç kəs qəsdən
görə bilməz istədiyi şəxsin yuxusunu.
Və səhvən
kabus görməz heç kəs.
Şirin yuxuları yoza bilənlərə deyin ki,
mən bircəcə başımla
min əlavə başın da yuxusunu görürəm.
Və gördüklərimin
biri də
şirin yuxu deyil.

Karantin günlərində kəşf etdim
ki, spirt
ancaq səthi təmizləyir.
Amma insan səth deyil
və heç bir spirt
pak edə bilməz
insanın içini.
Həkimlərə deyin ki,
karantindən sonra
bir dərman kəşf etsinlər -
kədərin nizamsız dönəmlərini nizamlayan.

Karantində gördüm
ki, mənimsəyirəm dili.
Və farscada daha yaxşı mənimsədiklərimin
içində
bütün tərəflərimlə
ən çox “tənhalıq” sözündən qorxuram.
Hərçənd ki, intizar
daha heç nədən qorxmayacaq qədər
gücləndirib qəlbimin əzələlərini.